VEYSELOGLU

Ölkə:	Azərbaycan
Layihə nömrəsi:	56602
Biznes sektoru:	Qida sənayesi və aqrobiznes
Bildiriş növü:	Özəl
Ətraf mühit kateqoriyası:	B
Təsdiq tarixi:	2 dekabr 2026-cı il
Status:	Konsepsiyaya baxış mərhələsindən keçib, yekun baxış gözlənilir
İngilis dilində açıqlama tarixi:	29 oktyabr 2026-cı il

Layihənin təsviri

Azərbaycanın pərakəndə ərzaq satışı və gündəlik tələbat məhsulları (FMCG) sektorunda aparıcı şirkətlərdən biri olan “Veysəloğlu” Şirkətlər Qrupuna (bundan sonra “Qrup”) 126,0 milyon AZN-dək (65,0 milyon avro ekvivalenti) məbləğində birinci dərəcəli kreditin təqdim edilməsi nəzərdə tutulur. Layihə Qrupun mağazalar şəbəkəsi və nəqliyyat parkının genişləndirilməsinə, eləcə də Azərbaycanda yeni distribusiya mərkəzinin tikintisinə investisiyaları əhatə edir.

Layihənin Avropa İttifaqının EFSD+ Zəmanət Sazişi çərçivəsində “Bələdiyyə, infrastruktur və sənaye dayanıqlılığı üzrə Zəmanət Proqramı Plus” proqramı üzrə təqdim edilən birinci zərərin qarşılanması mexanizmindən faydalanacağı gözlənilir.

Layihənin məqsədləri

Layihə müasir logistika və pərakəndə satış şəbəkəsinin genişləndirilməsi üçün uzunmüddətli maliyyələşdirmə təqdim etməklə Qrupun inkişafını dəstəkləyəcək, eyni zamanda mühüm əməliyyat gücü və təchizat zənciri məhdudiyyətlərinin aradan qaldırılmasına kömək edəcəkdir.

Keçidin təsiri

EKT: 63

Layihənin keçid təsirinin əsas keyfiyyət meyarı “**Yaşıl iqtisadiyyat”** istiqamətidir. “EDGE” sertifikatlı distribusiya mərkəzinin yaradılması və yeni mağazalarda enerji səmərəliliyinin artırılması üzrə müvafiq investisiyalar

sayəsində ekoloji baxımdan daha dayanıqlı və resurslardan rasional istifadəni təmin edən ərzaq loqistikasının maliyyələşdirilməsi ilə bağlıdır.

Keçid təsirinin ikinci keyfiyyət meyarı **"İnklüzivlik"** istiqamətdir. Qrupun insan resurslarının idarə olunması təcrübələrinin, eləcə də bacarıqların və məşğulluq imkanlarına çıxışın məqsədyönlü şəkildə təkmilləşdirilməsi Layihə tərəfindən dəstəklənir. Layihə çərçivəsində genişlənmə ilə əlaqədar işçi qüvvəsinin idarə olunmasında yaranan çətinliklərin aradan qaldırılması, kadrların şirkətdə saxlanılması və əmək məhsuldarlığının artırılması, habelə biznesin uzunmüddətli dayanıqlılığını dəstəkləyən davamlı və inklüziv işçi heyətinin formalaşdırılması üçün işçi qüvvəsinin inkişafı üzrə kompleks proqram həyata keçiriləcək.

Müştəriyə dair məlumatlar

"VEYSƏLOĞLU" MMC

"Veysəloğlu" Azərbaycanın pərakəndə ərzaq satışı və gündəlik tələbat məhsulları sektorunda kompleks xidmətlər göstərən aparıcı şirkətlər qrupudur. 1994-cü ildə yaradılmış Qrup distribusiya, pərakəndə satış, loqistika və istehsalat sahələrində fəaliyyət göstərir. Qrupun son benefesiar sahibi Aydın Veysəloğludur.

AYİB-in maliyyələşdirmə xülasəsi

126 000 000,00 AZN

AYİB tərəfindən ayrılan maliyyələşdirmə digər kreditorların da iştirakı ilə formalaşdırılan və "Veysəloğlu" Şirkətlər Qrupunun logistika infrastrukturu və pərakəndə satış şəbəkəsinin genişləndirilməsi proqramını dəstəkləyən daha geniş maliyyələşdirmə paketinin tərkib hissəsidir.

Layihənin ümumi dəyəri

373 000 000,00 AZN

Əlavəlilik

Maliyyələşdirmə strukturu. AYİB-in maliyyə əlavə dəyəri onun Layihənin icra qrafikinə uyğun olaraq iri həcmdə uzunmüddətli maliyyələşdirmə təqdim etmək və bununla da mövcud maliyyələşdirmə çatışmazlığını səmərəli şəkildə aradan qaldırmaq imkanından irəli gəlir.

Standartların tətbiqi: Layihə çərçivəsində Bank işçi heyətinin idarə edilməsi üzrə metodikaların beynəlxalq standartlara uyğun təkmilləşdirilməsində, eləcə də korporativ idarəetmə mexanizmlərinin gücləndirilməsində Qrupa dəstək göstərir.

Ətraf mühit və sosial məsələlərin xülasəsi

Layihə 2024-cü il Ətraf Mühit və Sosial Siyasətinə (ƏMSS/ESP) uyğun olaraq B kateqoriyasına aid edilmişdir. Pərakəndə satış mağazalarının və distribusiya mərkəzinin yaradılması, eləcə də elektrik nəqliyyat vasitələrinin satın alınması ilə bağlı ətraf mühit və sosial (ƏMS) risklər müvafiq idarəetmə tədbirlərinin və qabaqcıl sənaye

təcrübələrinin tətbiqi vasitəsi ilə idarə oluna bilər.

Qrupda Ətraf Mühit və Sosial İdarəetmə Sisteminin (ESMS) əsas komponentləri mövcuddur. Əvvəllər beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq nəticəsində "Araz"ın ƏMS idarəetmə sistemi xüsusilə yüksək inkişaf səviyyəsinə çatmışdır. Bununla belə, AYİB-in Fəaliyyət Tələblərinə (FT-lər) daha dolğun uyğunluğun təmin edilməsi üçün bir sıra istiqamətlər üzrə təkmilləşdirməyə ehtiyac olduğu müəyyən edilib. Bunlara ƏMS idarəetmə sisteminin "OBA Market" və "Veysəloğlu Distribusiya" şirkətlərinə də şamil edilməsi, podratçıların idarə olunması prosedurlarının gücləndirilməsi, Qaradağ distribusiya mərkəzi üçün layihəyə xas Ətraf Mühit və Sosial Qiymətləndirmənin (ƏMSQ) aparılması və idarəetmə planlarının hazırlanması, həmçinin maraqlı tərəflərin cəlb edilməsi və şikayətlərə baxılması mexanizmlərinin təkmilləşdirilməsi daxildir.

Qrupda əmək münasibətlərinin, eləcə də iş yerində sağlamlığın qorunması və əməyin təhlükəsizliyinin idarə edilməsi sistemləri yaradılmışdır. Bu sistemlərin fəaliyyəti sağlamlıq, təhlükəsizlik, ətraf mühit (SƏTƏM) və insan resursları (HR) üzrə ixtisaslaşmış əməkdaşlar tərəfindən təmin edilir. Qrup mal təchizatçıları ilə bağlı ətraf mühit və sosial məsələlər üzrə kompleks yoxlamalar aparır və təchizatçılar üçün davranış kodeksi tətbiq edir.
Ətraf Mühit və Sosial Araşdırma (ESDD) nəticəsində Qrup üzrə insan resursları siyasətlərinin, işçilərin şikayətlərinə baxılması mexanizmlərinin və birləşmək azadlığı ilə bağlı öhdəliklərin gücləndirilməsinə, eləcə də podratçıların işçiləri ilə bağlı kompleks yoxlama və nəzarət prosedurlarının təkmilləşdirilməsinə ehtiyac olduğu müəyyən olunub. Müvafiq tədbirlər Qrupla razılaşdırılmış Ətraf Mühit və Sosial Fəaliyyət Planına (ƏMSFP/ESAP) daxil edilmişdir.

Qaradağda yaradılması nəzərdə tutulan distribusiya mərkəzi hələ layihələndirmənin ilkin mərhələsindədir və tikinti fazası üçün ətraf mühit və sosial məsələlərin idarə edilməsinin planlaşdırılmasına start verilməyib. Tikinti işlərinə başlamazdan əvvəl, Qrup AYİB-in tələblərinə uyğun ətraf mühit və sosial qiymətləndirmə aparacaq, tikinti və istismar mərhələləri üçün ətraf mühit və sosial idarəetmə planları hazırlayacaq, həmçinin podratçıların satınalma və idarəetmə proseslərinə ətraf mühit, sosial məsələlər, sağlamlıq və təhlükəsizliklə bağlı tələblərin inteqrasiya olunmasını təmin edəcəkdir.

Pərakəndə satış şəbəkəsinin genişləndirilməsi adi pərakəndə ticarət fəaliyyətinə xas olan risklərdən əlavə əhəmiyyətli ətraf mühit və ya sosial risklər yaratmayacaq. Elektrik nəqliyyat vasitələrinin istismarı zamanı Qrupun AYİB-in 4-cü Fəaliyyət Tələbinə (FT4) uyğun olan nəqliyyat vasitələrinin idarə edilməsi siyasəti və yol hərəkətinin təhlükəsizliyinə nəzarət tədbirləri tətbiq ediləcək.

Bank bu Layihənin icrasına İllik Ətraf Mühit və Sosial Hesabatın nəzərdən keçirilməsi və zərurət yarandıqda layihə sahələrinə səfərlər vasitəsilə nəzarət edəcək.

Yaşıl qiymətləndirmə

Layihə Paris Sazişinin iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə məqsədlərinə uyğundur. Belə ki, layihə fəaliyyəti Çoxtərəfli İnkişaf Banklarının Paris Sazişinə uyğun hesab edilən fəaliyyətlər siyahısında "Binalar (təhsil, səhiyyə, yaşayış, ofis, pərakəndə ticarət və s.)" kateqoriyasına daxildir.

Həmçinin, Layihə Paris Sazişinin iqlim dəyişmələrinə uyğunlaşma məqsədinə uyğundur. Layihənin həyata keçiriləcəyi ərazi üçün həddindən artıq yüksək temperatur riski müəyyən edilsə də, distribusiya şəbəkəsində temperatur rejiminə nəzarət olunması nəzərə alınaraq bu risk əhəmiyyətli hesab edilmir.

Bundan əlavə, Layihə üzrə maliyyələşdirmənin 61%-i "yaşıl" maliyyələşdirmə kimi təsnif edilmişdir. Bu göstərici

yeni mağazaların açılması planı çərçivəsində “yaşıl” kapital məsrəflərinin payına və anbarın “EDGE” sertifikatına əsaslanır.

Texniki əməkdaşlıq və qrant maliyyələşməsi

1. Hüquqi məsələlər üzrə araşdərma xərcləri qismən Yaponiya-AYİB Əməkdaşlıq Fondu (JECF) tərəfindən qarşılanacaq.
2. İnsan kapitalının inkişafı və müvafiq potensialın gücləndirilməsi istiqamətində dəstək göstəriləcək.
3. EFSD+ çərçivəsində dayanıqlılıq üzrə texniki yardımın yeni distribusiya mərkəzinin məhsuldarlıq və enerji səmərəliliyinin artırılmasına, eləcə də istixana effekti yaradan qaz emissiyalarının monitorinqi və hesabatlılıq sistemlərinin təkmilləşdirilməsinə dəstək verəcəyi gözlənilir.
4. Korporativ idarəetmənin təkmilləşdirilməsinə yönəldilmiş dəstəyin bir hissəsi AYİB-in Səhmdarların Xüsusi Fondu (SSF) hesabına maliyyələşdiriləcək.

Şirkətin əlaqə məlumatları

Xalis Məmmədov

xalis.mammadov@veyseloglu.az
+994 55 500 66 67

https://www.veyseloglu.az/public/en/

PSD-nin son yenilənmə tarixi

29 oktyabr 2026-cı il

Keçidin öyrənilməsi

Keçid təsirinin qiymətləndirilməsi ilə bağlı AYİB-in yanaşmasına dair əlavə məlumatları **buradan** əldə edə bilərsiniz.

Biznes imkanları

Biznes imkanları və ya satınalma məsələləri ilə bağlı sifarişçi şirkətlə əlaqə saxlayın.
AYİB ilə (satınalmadan sair mövzuda) biznes imkanları üçün aşağıdakı vasitələrlə əlaqə saxlayın:

Tel: +44 20 7338 7168
E-poçt: **projectenquiries@ebrd.com**
Dövlət sektoru layihələri ilə bağlı **AYİB Satınalmalar** səhifəsinə daxil olun:

Tel: +44 20 7338 6794
E-poçt: **procurement@ebrd.com**

Ümumi müraciətlər

Xüsusi müraciətlər **AYİB Müraciət blankı** vasitəsilə edilə bilər.

Ətraf Mühit və Sosial Siyasət (ƏMSS)

ƏMSS və müvafiq Fəaliyyət tələbləri (FT-lər) AYİB-in "ətraf mühitin mühafizəsi sahəsində düzgün və dayanıqlı inkişaf" strategiyasının təşviqi öhdəliyinin icra metodlarını müəyyənləşdirir. ƏMSS-yə və ƏMST-lərə müştərilərin ictimai məlumat və məsləhət üzrə dövlət qanunlarının tətbiq olunan tələblərinə cavab vermək və maraqlı tərəflərin, xüsusilə də müştərinin və layihənin ətraf mühit və sosial göstəricilər (ƏMS) sahəsində narahatlıqlarını və şikayətlərini qəbul etmək və həllini sürətləndirmək üçün şikayətlərin baxılması mexanizminin müəyyən edilməsi üçün xüsusi müddəalar daxildir. AYİB həmçinin layihənin ətraf mühit və sosial risklərinin və təsirlərinin xarakterinə və miqyasına uyğun olaraq müştərilərindən layihələrin riskləri və təsirləri barədə müvafiq məlumatları açıqlamağı və ya maraqlı tərəflərlə hərtərəfli məsləhətləşmə aparmağı və onların düşüncələrini nəzərə alaraq onlara cavab verməyi tələb edir.

AYİB-in bu sahədə təcrübələrinə dair ətraflı məlumat ƏMSS səhifəsində verilmişdir.

Düzgünlük və Uyğunluq

AYİB-in Uyğunluq üzrə Baş direktorunun Ofisi (UBDO) yaxşı idarəetməni təşviq edir və Bankın bütün əməliyyatlarında qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq ən yüksək düzgünlük standartlarının tətbiqini təmin edir. Layihələrin icrası zamanı qeyri-məqbul düzgünlük və ya reputasiya ilə bağlı risklərə yol verməmək üçün Bank bütün müştərilərinin düzgünlük sahəsində hüquqi yoxlamasını aparır. AYİB hesab edir ki, layihələrin qiymətləndirilməsi və təsdiqlənməsi mərhələlərində problemlərin müəyyən və həll edilməsi Bank əməliyyatlarının düzgünlüyünün təmin olunması üçün ən effektiv üsuldur. UBDO bu qabaqlayıcı tədbirlərdə mühüm rol oynayır və investisiya qoyuluşundan sonra layihələrin düzgünlük sahəsində risklərinə nəzarətdə kömək edir.

UBDO həmçinin AYİB-in maliyyələşdirdiyi layihələrdə saxtakarlıq, korrupsiya və qeyri-məqbul davranışla bağlı iddiaların araşdırılmasına görə məsuliyyət daşıyır. Bankın daxilində və ya xaricində saxtakarlıq və ya korrupsiya halları ilə bağlı şübhəsi olan hər bir şəxs compliance@ebrd.com e-poçt ünvanı vasitəsilə Uyğunluq üzrə Baş direktora yazılı şəkildə müraciət etməlidir. Məruzə olunan bütün məsələlər UBDO tərəfindən araşdırılacaqdır. Bütün müraciətlər nəzərdən keçiriləcəkdir. Müraciətlər Bankda istifadə olunan və ya Bankın fəaliyyət göstərdiyi ölkələrin dilində edilə bilər. Məlumatlar dürüst şəkildə təqdim edilməlidir.

İnformasiya Əlçatanlığına dair Siyasət (İƏS)

1 yanvar 2025-ci il tarixindən qüvvəyə minmiş İƏS AYİB-in informasiyanı açıqlama qaydasını və bankın strategiya, siyasət və əməliyyatları sahəsində maariflənməni və anlayışı artırmaq üçün maraqlı tərəflərlə məsləhətləşmə qaydalarını müəyyən edir. AYİB-in veb-saytında mövcud olan məlumatları əldə etmək üçün **İnformasiya Əlçatanlığına dair Siyasət** səhifəsinə daxil ola bilərsiniz.

İnformasiya əldə etməklə bağlı xüsusi müraciətlər **AYİB Müraciət blankından** istifadə etməklə göndərilə bilər.

Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM)

Ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı narahatlıqların Müştəri və ya Bankla həll edilməsi cəhdləri uğursuz olduğu təqdirdə (məs., Müştərinin Layihə səviyyəli şikayətlərinin baxılması mexanizmi və ya Bankın rəhbərliyinə birbaşa müraciət vasitəsilə) fiziki şəxslər və təşkilatlar onları narahat edən məsələləri AYİB-in Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM) vasitəsilə bildirə bilərlər.

LMHM zərər verdiyi ehtimal olunan (və ya zərər vermə ehtimalı olan) Layihə məsələlərini müstəqil şəkildə nəzərdən keçirir. Bu Mexanizmin məqsədi ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı yaranan problemlərin həlli istiqamətində Layihənin maraqlı tərəfləri arasında dialoqu dəstəkləmək, Bankın özünün **Ətraf Mühit və Sosial Siyasətinə** və ya **İnformasiya Əlçatanlığına dair Siyasətinin** Layihəyə aid müddəalarına əməl edib-etmədiyini müəyyən etmək və Bankın gələcəkdə uyğunsuzluq hallarına yol verməməsi üçün aidiyyəti üzrə bu siyasətlərə riayət olunmama hallarını aradan qaldırmaqdır.

LMHM və onun səlahiyyətləri haqqında daha ətraflı məlumat əldə etmək, **Baxılması üçün müraciət** qaydalarını öyrənmək üçün **Layihənin Müstəqil Hesabatlılıq Mexanizminin veb-səhifəsinə** daxil olmağınız və ya LMHM və müraciət etmək barədə təlimat və əlavə məlumat əldə etmək üçün **ipam@ebrd.com** e-poçt vasitəsilə LMHM ilə əlaqə saxlamağınız xahiş olunur.

Bu sənəd Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) tərəfindən yuxarıda göstərilən Layihə İdentifikasiya Nömrəsi və tarix əsasında ingilis dilində dərc edilmiş Layihənin Qısa Təsviri Sənədinin tərcüməsidir. İngilis dilində olan orijinal mətn ilə bu tərcümənin mətni arasında hər hansı uyğunsuzluq aşkar edildiyi təqdirdə, Layihənin Qısa Təsviri Sənədinin ingilis dilində olan orijinal mətni üstünlük təşkil edir.